AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# AKSİZLƏR

BAKI – 2024

# Aksizin ödəyiciləri

- Azərbaycan Respublikası ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər;
- Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli malları istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri;
- Sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal edildiyi hallarda, malların istehsalçısı (podratçı) (bu halda istehsalçı (podratçı) aksiz məbləğlərini sifarişçidən almalıdır);
- Aksizli malların istehsalçısı və sifarişçisi qarşılıqlı surətdə asılı olan rezident şəxslər olduqda, malın sahibi (sifarişçi).

**Nəzərə alın ki...**

- Aksizli malların **istehsalçıları** eyni zamanda Əlavə Dəyər Vergisinin (ƏDV) ödəyiciləridir.
- **İdxal** edilən aksizli mallar gömrük qanunvericiliyinə uyğun olaraq gömrük orqanlarında bəyan edilir və aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.

# Aksizli mallar hansılardır?

- içməli spirt, pivə (alkoqolsuz pivə istisna olmaqla) və spirtli içkilərin bütün növləri;
- tütün məmulatları və onların əvəzediciləri;
- neft məhsulları;
- minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);
- istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr;
- idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;
- idxal olunan xəz-dəri məmulatları;
- energetik içkilər;
- avtobuslar (sıxılmış qazla işləyən avtobuslar istisna olmaqla);
- dövlət qeydiyyatına alınmalı olan motosikletlər;
- elektron siqaretlər üçün maye;
- birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri.

### Aksizlər üzrə hesabat dövrü və aksizlərin ödənilməsi

Aksizli malların istehsalçıları tərəfindən **“Aksiz bəyannaməsi”** hər hesabat ayı üçün **növbəti ayın 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və həmin müddət ərzində aksizlər dövlət büdcəsinə ödənilməlidir.

# Aksizlər üzrə vergi dərəcələri hansılardır?

- **İstehsal olunan mallar üzrə:**

  Azərbaycan Respublikasında istehsal olunan içməli spirtə, pivəyə, spirtli içkilərə, tütün məmulatlarına və onların əvəzedicilərinə, energetik içkilərə, birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzedicilərinə və elektron siqaretlər üçün mayeyə tətbiq edilən aksiz dərəcələri:

| | |
|---|---|
| içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti) | hər litrinə 4,8 manat |
| araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları | hər litrinə 4,8 manat |
| konyak və konyak materialları | hər litrinə 4,8 manat |
| şampan şərabı | hər litrinə 0,2 manat |
| şərablar və şərab materialları | hər litrinə 0,2 manat |
| pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər | hər litrinə 0,4 manat |
| siqarilla (nazik siqarlar) | 1000 ədədinə 45,5 manat |
| siqarlar, o cümlədən ucları kəsilən siqarlar | hər bir ədədinə 1,0 manat |
| tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri | 1000 ədədinə 45,5 manat |
| energetik içkilər | hər litrinə 3,1 manat |
| elektron siqaretlər üçün maye | hər litrinə 100,0 manat |
| Bu cədvəldə nəzərdə tutulmayan tündləşdirilməmiş alkoqollu içkilər (tərkibindəki spirtin miqdarı 9 faizdən çox olmayan) | hər litrinə 0,4 manat |

| | |
|---|---|
| qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, “homogenləşdirilmiş” və ya “bərpa edilmiş” tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər | hər kiloqramına 22,0 manat |
| birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri | hər bir ədədinə 2 manat |
| alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş, tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar | 1000 ədədinə 16 manat |

Azərbaycan Respublikası ərazisində istehsal olunan neft məhsulları üçün vergi tutulan əməliyyatın məbləği vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən, o cümlədən barter əsasında aldığı və ya almalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz, yol vergisi və ƏDV çıxılmaqla) aşağı olmayan məbləğidir.

**Azərbaycan Respublikasına idxal olunan mallar üzrə:**

- minik avtomobillərinin mühərrikinin həcminə mütənasib olaraq tətbiq edilən aksiz dərəcələri:

| Mühərrikin həcmi | Aksizin dərəcəsi | Mühərrikin həcmi 3000 kubsantimetrdən çox və istehsal tarixi 3 ildən artıq olduqda aksizin dərəcəsi |
|---|---|---|
| 2000 $sm^3$-dək olduqda | hər 1 $sm^3$ - 0,3 manat | — |
| 3000 $sm^3$-dək olduqda | 600 manat + 2001-3000 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 5 manat | — |
| 4000 $sm^3$-dək olduqda | 5600 manat + 3001-4000 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 13 manat | 5600 manat + 3001-4000 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 15 manat |
| 5000 $sm^3$-dək olduqda | 18600 manat + 4001-5000 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 35 manat | 20600 manat + 4001-5000 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 40 manat |
| 5000 $sm^3$-dən çox olduqda | 53600 manat + 5000 $sm^3$ -dən çox hissəsi üçün hər $sm^3$ görə - 70 manat | 60600 manat + 5000 $sm^3$ -dən çox hissəsi üçün hər $sm^3$ görə - 80 manat |

Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinin **istehsal tarixi 7 ildən artıq** olduqda, aksiz yuxarıda qeyd edilən cədvələ əsasən hesablanmış məbləğə benzin mühərrikli **minik avtomobillərinə 1,2, dizel mühərrikli minik avtomobillərinə isə 1,5 yüksəldici əmsal** tətbiq edilməklə hesablanır.

- avtobusların mühərrikinin həcminə mütənasib olaraq tətbiq edilən aksiz dərəcələri:

| | |
|---|---|
| 4000 $sm^3$-dək olduqda | hər 1 $sm^3$ - 2,0 manat |
| 6000 $sm^3$-dək olduqda | 8000 manat + 4001 - 6000 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 4 manat |
| 8000 $sm^3$-dək olduqda | 16000 manat + 6001 - 8000 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 6 manat |
| 10000 $sm^3$-dək olduqda | 28000 manat + 8001 - 10000 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 8 manat |
| 10000 $sm^3$-dən çox olduqda | 44000 manat + 10000 $sm^3$ -dən çox hissəsi üçün hər $sm^3$ görə - 10 manat |

**Qeyd:** Azərbaycan Respublikasına idxal olunan avtobusların istehsal tarixi **1 ildən artıq** və ya qət etdiyi məsafə **100.000 kilometrdən artıq** olduqda, aksiz yuxarıda qeyd olunan qaydada hesablanmış məbləğə **1,5 əmsal** tətbiq edilməklə hesablanır.

- motosikletlərin mühərrikinin həcminə mütənasib olaraq tətbiq edilən aksiz dərəcələri:

| | |
|---|---|
| **125 $sm^3$-dək olduqda** | hər 1 $sm^3$ – 0,20 manat |
| **500 $sm^3$-dək olduqda** | 25 manat + 126-500 $sm^3$ hissəsi üçün hər 1 $sm^3$ görə - 0,40 manat |
| **500 $sm^3$-dən çox olduqda** | 175 manat + 500 $sm^3$-dən çox hissəsi üçün hər $sm^3$ görə - 0,50 manat |

- istirahət və ya idman üçün yaxtaların və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrin mühərrikinin həcminin hər kub santimetrinə görə **6 manat**;
- platinin hər qramına görə **4 manat**;
- Qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min çəki vahidindəki miqdarı:

| | |
|---|---|
| **375** olduqda | hər qramına görə 1,5 manat |
| **500** olduqda | hər qramına görə 2 manat |
| **585** olduqda | hər qramına görə 2,4 manat |

| | |
|---|---|
| **750** olduqda | hər qramına görə 3 manat |
| **958** olduqda | hər qramına görə 5 manat |
| **999** olduqda | hər qramına görə 6 manat |

- emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün **400 manat** (aksiz dərəcəsi) olmaqla:

| | |
|---|---|
| **< 1** karat | 400 manat * faktiki çəki |
| **1-2** karat | 2 əmsal *400 manat * faktiki çəki |
| **2-3** karat | 3 əmsal *400 manat * faktiki çəki |

| | |
|---|---|
| **3-4** karat | 4 əmsal *400 manat * faktiki çəki |
| **4-5** karat | 5 əmsal *400 manat * faktiki çəki |
| **> 5** karat | 10 əmsal *400 manat |

- idxal olunan xəz-dəri məmulatlarının topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinin **10 faizi**.

Azərbaycan Respublikasında **istehsal olunan** neft məhsullarına, minik avtomobillərinə, avtobuslara, motosikletlərə və istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə aksiz dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

**Aksizli malların ixracı sıfır (0) dərəcəsi ilə vergiyə cəlb olunur.**

# Aksizdən azadolmalar

- Fiziki şəxsin fərdi istehlakı üçün aşağıdakı miqdarda aksizli malların idxalı:
  - **1,5 litr** alkoqollu içki;
  - **2 litr** energetik içki;
  - **200 ədəd** siqaret, 20 ədəd siqarilla və 10 ədəd siqar;
  - **3 ədəd** birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;
  - **100 ədəd** alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar;
  - **100 qram** çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri;
  - **50 millilitr** elektron siqaretlər üçün maye;
  - **20 qram** qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları;
  - 0,5 karat emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;
  - Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş çənindəki yanacaq.
- Yuxarıdakı bənddə qeyd edilənlər nəzərə alınmaqla idxal olunan platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məmulatlar, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz - 2021-ci il yanvarın 1-dən 6 il müddətinə;
- mühərrikinin işçi həcmi 125 kubsantimetrdən çox olmayan motosikletlərin idxalı - 2024-cü il yanvarın 1-dən 3 il müddətinə.
- Respublika ərazisindən tranzitlə daşınan mallar.

Aksizdən azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olsun. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal, rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq olunur.

**Qeyd:** Aksizlər üzrə azad olunma halları barədə ətraflı məlumatı **Vergi Məcəlləsinin 188-ci maddəsi**ndən əldə edə bilərsiniz.

!

**Unutmayın ki...**

- Vergi ödəyicisinin aksizin ödənişi üzrə borcu olduqda, həmin borc yaranandan ödəniləndək həyata keçirilən vergitutulan əməliyyatlar üzrə aksizlər əməliyyatların aparıldığı vaxt ödənilməlidir. Əks təqdirdə, vergi ödəyicisinin həmin malları bu mallar üzrə aksizlər ödəniləndək istehsal binasının hüdudlarından kənara çıxartmaq hüququ yoxdur.
- Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara buraxılmasına görə vergi hesablanmışdırsa, həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi və ya digər səbəblərdən geri qaytarılması zamanı hesablanmış aksiz malların qaytarıldığı hesabat dövründə azaldılır.
- Aksizli malların istehsalçısı tərəfindən aksizli malların istehsal binasının hüdudlarından ona məxsus digər təsərrüfat subyektlərinə (obyektlərinə), yaxud əvvəlcədən sifariş edilməyən əməliyyatlar üzrə nəqliyyat vasitələrinə buraxılışı "aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə" elektron qaimə-faktura ilə rəsmiləşdirilir.

**Unutmayın ki...**

- Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara özünə məxsus obyektlərə buraxılmasından sonra həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi səbəbindən geri qaytarılması zamanı vergi ödəyicisi həmin malların aktlaşdırılması və hesablanmış verginin azaldılması üçün vergi orqanına müraciət edir. Müraciət edilmə tarixindən 5 iş günü müddətində vergi orqanının məsul şəxslərinin iştirakı ilə həmin mallar aktlaşdırılır.
- Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullara görə aksizin azaldılması müvafiq aktın tərtib edildiyi hesabat dövründə həyata keçirilir və vergi hesabatı təqdim edilərkən tərtib edilən akt vergi orqanına təqdim edilir.  Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullar məhv edildikdə həmin məhsulların istehsalı zamanı əvəzləşdirilmiş aksizin büdcəyə hesablanması həyata keçirilir.
- Aksizli malları (xammal və materialları) aldıqda və bu malları vergitutulan digər aksizli malların istehsalı üçün istifadə etdikdə vergi ödəyicisi ödənilmiş aksizin məbləğini yalnız xammal və materialların istehsalçısı tərəfindən aksizin ödənildiyini təsdiq edən elektron qaimə-faktura və ya müvafiq idxal sənədləri əsasında əvəzləşdirmək və ya geri qaytarmaq, artıq ödənilən verginin məbləğini isə təsdiqedici sənədləri vergi orqanına verdikdən sonra **45 gün** ərzində geri almaq hüququna malikdir.
- Sonradan təkrar ixrac məqsədi ilə idxal olunan mallar üçün aksiz malların idxalı vaxtı ödənilir və sonradan təkrar ixracın faktiki həcminə müvafiq məbləğdə aksizi almış gömrük orqanları tərəfindən **15 gün** ərzində geri qaytarılır.

Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı olan malların siyahısı, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Aksiz markalarının hazırlanması, onların vergi ödəyicilərinə verilməsi və uçotunun aparılması Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təşkil edilir. Belə aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq qadağandır. Qeyd edilən qaydaların tələblərini pozan şəxs Azərbaycan Respublikasının Vergi, İnzibati Xətalar və Cinayət Məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyır.

**Vergi Məcəlləsi ilə müəyyən edilən aksizli mallara tətbiq edilən aksiz dərəcələrinin "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hissəsi icbari tibbi sığorta fonduna ödənilir.**

**Məlumatınız olsun ki**

➔ 1 iyul 2024-cü il tarixdən etibarən tütün məmulatları və onların əvəzediciləri, elektron siqaretlər üçün maye, birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri üzrə:

- Həmin mallar Azərbaycan Respublikasının ərazisində istehsal və ya ölkəyə idxal edildikdə aksizlər **məcburi nişanın alındığı vaxt** ödəniləcək;
- Bu malların istehsalçısı tərəfindən məcburi nişanın alınmasına görə vergi hesablanmışdırsa, həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi və ya digər səbəblərdən geri qaytarılması zamanı hesablanmış aksiz malların qaytarıldığı hesabat dövründə azaldılacaq;
- Bu malların istehsalçısı olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə onların sahibliyində aktivləşdirilməmiş məcburi nişan qalarsa, vergi ödəyicisi həmin nişanları alarkən ödənilmiş aksiz məbləğlərini geri almaq hüququna malik olacaq;
- Aksiz dərəcələrində artım olduqda, məcburi nişan alarkən vergini aşağı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə artırılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə növbəti ayın 20-dən gec olmayaraq, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxal edildiyi vaxt gömrük bəyannaməsində əks etdirməklə dövlət büdcəsinə ödəyəcək;

- Aksiz dərəcələrində azalma olduqda, məcburi nişan alarkən vergini yuxarı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə azaldılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxalı üzrə tərtib edilmiş gömrük bəyannaməsində əks etdirməklə aksiz öhdəliyini azaldacaq;
- Həmin mallar sonradan təkrar ixrac məqsədi ilə idxal olunduqda aksiz məcburi nişanın alındığı vaxt ödəniləcəkdir.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.

VEGİLƏRƏ AİD
NƏŞRLƏR

195
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**